

NURANƏ NİHAN

# AZƏRBAYCAN BAYRAĞI

Qan qoxulu o illərin hər dəhşətli anıyla,
Neçə-neçə məzlumların sipər olan canıyla,
Saya gəlməz şəhidlərin töküldüyü qanıyla
Qazandığım hürriyətim - Azərbaycan bayrağı!
Mübarizəm, şücaətim - Azərbaycan bayrağı!

Gəzib dolan bu dünyanı bayraq macərasında,
Varmı belə gözəl bayraq bayraqlar arasında?
Millətimin bir millət tək millətlər sırasında
Varlığıma zəmanətim - Azərbaycan bayrağı!
Mən olmağım, şəxsiyyətim - Azərbaycan bayrağı!

Səma rəngim - Türk olmağım,Türklüyümdən var nişan.
Qırmızı rəng - mən azadam, qul olmaram heç zaman.
Yaşıl rəngim - dinim İslam, Allahım - tək Yaradan.
Hər rəngim bir əlamətim - Azərbaycan bayrağı!
Adım-sanım, şan-şöhrətim - Azərbaycan bayrağı!

Sənə olan bu sevgimin ölçüsü yox bəşərdə.
Səndən ötrü düşsəm xoşdur min bəlaya, min dərdə.
Təki dalğalansın mənim bayrağım zirvələrdə,
Sarsılmayan məhəbbətim - Azərbaycan bayrağı!
Öz eşqimə sədaqətim - Azərbaycan bayrağı!

Mən bu yurdun övladıyam birgə arzum var mənim,
Şəhid olum bayraq üstə bayraq olsun kəfənim.
Nə qədər ki, bayrağım var, var olacaq Vətənim,
Dağ vüqarım, şax qamətim - Azərbaycan bayrağı!
Qürur yerim, fəxarətim - Azərbaycan bayrağı!

# AZADLIQ YOLUNDA

Azadlıq yolunda yanan bir çıraq,
Gündüzlər görünür, gecə görünür.
Hər şeydən ucada dayanan bayraq,
Ordan Azərbaycan necə görünür?!

Dumanmı çökübdü vətənin üstə?
Yox, o, duman deyil - ahdır, amandır!
Fikirlər qarışıq, duyğular xəstə,
Vətən yaralıdır, gör nə zamandır!

Bir bax qərib olan ellərə doğru,
Bizsiz Qarabağın necədir halı?
Göyçə dərd-nisgildir, Zəngəzur ağrı,
Ordan görünürmü bir işıq yolu?

Nigaran-nigaran göydə dolanan,
Şəhid ruhlarından xəbərin varmı?
Oğul həsrətiylə oda qalanan,
Ana ahlarından xəbərin varmı?

Ordan seçilirmi doğru əyridən,
Dövrün çirkabını vaxt siləcəkmi?
Nəfsin meydanında atın səyirdən,
Haqqın cəzasına tuş gələcəkmi?

Rüşvət qanunları salıb kəsərdən,
Uçmur qalasından quş harınların.
Səsi qulağına gəlirmi hərdən,
Acından zil çalan boş qarınların?

Elə hey baxırsan lal kimi susub,
Rəngin xəcalətdən saraldı yoxsa...?
Zəngin ölkəmizdə bu qədər kasıb
Görməkdən gözlərin qaraldı yoxsa...?

# NƏ FAYDA

O gözlər ki həqiqəti görməyə,
Ona sipər çəkən qaşdan nə fayda?
İncə duyğulardan kasad ürəyə,
Ağıldan nə fayda, başdan nə fayda?

Heç nə vec verməyir nəfsin güdənə,
Yamanlıq etməyi adət edənə.
Dərdindən içinin yağı gedənə,
Kababdan nə fayda, aşdan nə fayda.

Həyat mürəkkəbdir, getmə dərinə,
Bilmək olmur, xeyiri nə, şəri nə?!
Sağlığında unudulan birinə,
Öləndə tökülən yaşdan nə fayda?

Ruh geri dönərmi çıxdığı cana?
Bir ömrün vədəsi yetibsə sona!
Torpağın altında yatan insana,
Üstünü bəzəyən daşdan nə fayda?

Hərə bu dünyada bir yolu seçdi,
Kim nəyi əkdisə, onu da biçdi.
Nihan, olan oldu, keçən də keçdi,
Bəlkədən nə fayda, kaşdan nə fayda.

# QARABAĞ HƏSRƏTİ

Qarabağ, hicranın nə uzun oldu?!
İllərdir yaşayan ölü kimiyəm.
Ah çəkib inləyən ana yurdumun,
Tikanlar bürümüş çölü kimiyəm.

Həsrətin dilimdə bir nəğmə olmuş,
Dərdin süzülərək qəlbimə dolmuş.
Ləçəyi xəzandan saralıb solmuş,
Viranə bağların gülü kimiyəm.

Artıq qovuşmamız qalıb allaha,
Nə qədər göz dikək gələn sabaha?!
O qaynar ürəyim isinmir daha,
Sönmüş ocaqların külü kimiyəm.

Zaman ilmə-ilmə səbrimi sökür,
Ümidlər su olub torpağa çökür.
Şerim haray çəkir, göz yaşı tökür,
Nihanam, çayların seli kimiyəm.

# XOCALI HARAYI

Dərdimizi kim anlaya, kim qana,
Daşa desək, çətin ki daş dayana.
Göz yumma, gəl, o dəhşətə, o qana,
Məzlumun səsinə səs ver, ay dünya!

Söylə, bircə dəfə canın yandımı?
Qəlbin heç sızlayıb, qanın dondumu?
O zülümlər beşdimi, ya ondumu,
Bir-bir deyim, sən də otur say, dünya!

Zülmət gecə, soyuq hava, şaxta, qar,
Od ələndi, ərşə qalxdı ahu-zar.
Bir el batdı, bir yurd oldu tarimar,
Sən gördünmü bu dəhşətə tay, dünya!

Axan qanlar qar üstünə saldı iz,
Baş kəsildi, qol budandı, çıxdı göz.
Əsir düşdü neçə gəlin, neçə qız,
Oldu həyatları necə zay, dünya!

Yandırma düşmənin zülm ocağını,
Qoparma yaramın üz-qaysağını.
Yaxşı-yaxşı dinlə, aç qulağını,
Xocalımın harayını duy, dünya!

# A MİLLƏT

Tarixdə salmışıq silinməz bir iz,
Ərənlər yetirmiş Oğuz nəslimiz,
Yenilməz, qüdrətli, şanlı türkük biz,
Adımıza sahib çıxaq, a millət.

Qətiləşsin gümanımız, bəlkəmiz,
Düşmənləri dərdə salsın kölgəmiz,
Od-alovlar ölkəsidir ölkəmiz,
Odumuza sahib çıxaq, a millət.

Gücümüzü sübut edək cahana,
Haqq səsimiz qoy yayılsın hər yana,
Yağı göz qoyduğu ney-balabana,
Udumuza sahib çıxaq, a millət.

Nihan, sanki sınıb qol-qanadımız,
Hələ də susmayıb ah-fəryadımız,
Qarabağda qaldı ağız dadımız,
Dadımıza sahib çıxaq, a millət.